# MENARİNİ ŞİRKƏTİNİN DAVRANIŞ KODEKSİ

**Ethical** vision,
**Integrity** in action

MENARINI
group







## Giriş

*"Hörmətli Menarini Group ailəsi,*

*məlum olduğu kimi, biz ən yüksək keyfiyyət standartlarına əməl edirik və fəaliyyətimizi əsas dəyərlərimizə, o cümlədən etika və şəffaflığa uyğun olaraq həyata keçiririk. Hər birimiz bütün qanun və qaydalara riayət etməyə çalışırıq və vicdanla, ən yüksək etik standartlara uyğun olaraq fəaliyyət göstərməyə davam edəcəyik.*
*Bu etik standartlar Qrup siyasətimizin bünövrəsini təşkil edir, həmkarlarımızla qarşılıqlı münasibətlər, tərəfdaşlar və təchizatçılarla biznesin aparılması, bütün dünyada pasiyentlərimizə və bir çox cəmiyyətlərə xidmətlərin göstərilməsi üçün ümumi əsası təmin edirlər. Bütün tərəfdaşlarımız üçün etibarlı seçim olaraq qalmağa davam etməyimiz üçün hər birinizin Davranış Kodeksinə tam həcmdə əməl edəcəyinə ümid edirəm."*

Elcin Barker Ergun



## 01

ETİK SEÇİM

7 Məqsəd

8 İştirakçılar

8 Hərəkətlərimizi tənzimləyən prinsip və qaydaları nə üçün təyin edirik

8 Rəhbərliyin sadiqliyi və məsuliyyəti

9 Məsuliyyət, qanun

## 02

BİZNESİN APARILMASINDA VİCDANLILIQ

11 Rüşvətxorluğa yol verilməməsi

13 Səhiyyə işçiləri ilə qarşılıqlı əlaqələr

14 Təşviqat fəaliyyəti və elmi mübadilə

14 Hədiyyələr, qonaqpərvərlik əlamətləri və əlaqəli xərclər

15 Maraqların toqquşması

16 Təchizatçıların seçilməsi və satınalmalar

17 Rəqabət və vicdanlı işgüzar

## 03

İŞÇİLƏRİMİZİN MÜHAFİZƏSİ

21 İnsan resursları

22 Qısnama və ayrı-seçkiliyin mütləq şəkildə qəbul edilməməsi

23 Ədalətli rəftar

23 Sağlamlıq və təhlükəsizlik

24 İnsan haqları

25 İşçilərin məxfilik hüququ

25 İnklüzivlik mədəniyyəti

## 04

PASİYENTLƏRİMİZƏ FOKUSLANMA

29 Tədqiqat və layihələrdə vicdanlılıq

30 Məlumatların açıqlanması

30 Məhsulların keyfiyyəti

31 Pasiyentin təhlükəsizliyi

31 Təhlükəsizliyin monitorinqi və hesabatlar

32 Məlumatların məxfiliyi

00 - MÜNDƏRİCAT
DAVRANIŞ KODEKSİ

## 05

İNFORMASİYADAN İSTİFADƏDƏ VƏ AKTİVLƏRİN QORUNMASINDA VİCDANLILIQ

35 Mühasibat kitabları, qeydlər və maliyyə hesabatları

35 Əqli mülkiyyət

36 Məxfi məlumatlar

36 Korporativ aktivlərin mühafizəsi

## 06

İCTİMAİYYƏT VƏ CƏMİYYƏT QARŞISINDA MƏSULİYYƏT

39 Siyasi ödəmələr

39 Xeyriyyə ianələri və sosial layihələr

40 Hakimiyyət orqanları və idarələrlə əməkdaşlıq

## 07

DAVRANIŞ KODEKSİNİN POZULMASI HAQQINDA MƏLUMAT VERMƏ (KORPORATİV MƏLUMATLANDIRMA SİYASƏTİ)

43 Məlumatlandırma

45 İntizam cərimələri

45 İntiqamdan qoruma

## 08

ƏLAQƏ MƏLUMATLARI

47 Əlaqə məlumatları

və qaydalara əməl olunması

münasibətlər

18 Beynəlxalq ticarət fəaliyyəti

18 Ətraf mühitin mühafizəsi

26 Sosial şəbəkədə ünsiyyət zamanı məsuliyyət

# 01

## ETİK SEÇİM

Məqsəd

İştirakçılar

Hərəkətlərimizi tənzimləyən prinsip və qaydaları nə üçün təyin edirik

Rəhbərliyin sadiqliyi və məsuliyyəti

Məsuliyyət, qanun və qaydalara əməl olunması







## Məqsəd

Menarini Group etik davranış standartlarının təşviq edilməsi, bütün qanun və qaydalara əməl ediləcəyinə zəmanət vermək, uyğun olmayan və ya qanunsuz davranış barədə məlumatların təqdim edilməsində yardım etmək üçün öz Davranış Kodeksini (bundan sonra "Kodeks" adlandırılacaq) qəbul etmişdir. Menarini Group-a daxil olan şirkətlər tərəfindən könüllü olaraq qəbul edilən Kodeks bizim öz əməkdaşlarımıza, pasiyentlərimizə, işgüzar tərəfdaşlarımıza və ümumilikdə cəmiyyətə (yəni maraqlı tərəflərə) sadiqliyimizin konkret sübutu kimi müsbət davranış prinsiplərini və qaydalarını müəyyən edir.
Bu Kodeks hər birimizin vicdanla fəaliyyət göstərməsi üçün rəhbər tutacağı əsas təlimatdır.
Kodeksin ingilis dilindəki versiyası ilə hər hansı dilə tərcüməsi arasında ziddiyyətlər olduqda, ingilis dilindəki versiya üstün qüvvəyə malik hesab olunacaqdır.



## İştirakçılar

Kodeks Menarini Group-a daxil olan bütün şirkətlərə, onların işçilərinə, vəzifəli şəxslərinə, rəhbərlərinə, eləcə də işgüzar tərəfdaşlarına və Menarini Group ilə işgüzar münasibətləri olan bütün digər şəxslərə (hamısı birlikdə – "İştirakçılar" termini altında ümumiləşdirilmişdir) bilavasitə aiddir.

## Hərəkətlərimizi tənzimləyən prinsip və qaydaları nə üçün təyin edirik

Menarini Group-un prinsip və qaydaların məcmusunu işləyib hazırlamasına baxmayaraq, necə düzgün hərəkət etməli olduğumuzun aydın olmadığı vəziyyətlərlə qarşılaşa bilərik. Bu cür hallarda Kodeksə və orada qeyd edilmiş prinsiplərə müraciət etməyinizi xahiş edirik. Heç bir halda Şirkətin mənafeyi naminə hərəkət etdiyimizə inanmağımız bu Kodeksə zidd ola biləcək hərəkətlərə haqq qazandırmır.






## Rəhbərliyin sadiqliyi və məsuliyyəti

Rəhbərlik Kodeksin yerinə yetirilməsinə görə bilavasitə məsuliyyət daşıyır və Menarini Group-a daxil olan şirkətlər tərəfindən Kodeksə əməl olunması üçün bütün zəruri tədbirləri görür.

Təşkilatın bütün səviyyələrində rəhbərlər etik problemlərin aşkara çıxarılmasına görə birbaşa məsuliyyət daşıyır və öz tələbləri, hərəkətləri və davranışı ilə bu Kodeksə təyin edilmiş etik prinsip və qaydaların vacibliyini nümayiş etdirir.



## Rəhbərliyin sadiqliyi və məsuliyyəti

Menarini Group-un bütün rəhbərləri hər zaman Menarini-nin əsas dəyərlərinə uyğun olaraq qərarlar qəbul etməyə, öz hərəkətlərinə görə məsuliyyət daşımağa və cavab verməyə hazır olmalıdırlar. Nümunə olmaqla, onlar nəinki prinsip və qaydaların bütün əməkdaşlar tərəfindən bilinməsini, anlaşılmasını və əməl olunmasını təmin edəcəklər, həm də tələb olunduqda və ya zəruri hesab edildikdə təlimat, dəstək və izahatları təqdim edəcəklər.
Rəhbər şəxslər Davranış Kodeksinin pozulmasının yolverilməz olduğunu açıq şəkildə nümayiş etdirməlidirlər.



## Məsuliyyət, qanun və qaydalara əməl olunması

Menarini fəaliyyət göstərdiyi bütün ölkələrdə qüvvədə olan bütün qanunlara və normativ aktlara, o cümlədən məhsullarımızın tədqiqatlarını, işlənib hazırlanmasını, istehsalını, paylanmasını, marketinqini, satışını və təşviqini tənzimləyən qanunlara və normativ tələblərə riayət edir. Bu, yerli ticarət birliklərinin qaydalarına da aiddir. Bu Kodeks ilə qüvvədə olan beynəlxalq və yerli qanunlar və normativ aktlar arasında ziddiyyətlər və/və ya uyğunsuzluqlar olduqda, daha ciddi norma tətbiq edilir.

# 02

# BİZNESİN APARILMASINDA DÜRÜSTLÜK


Rüşvətxorluğa yol verilməməsi

Səhiyyə işçiləri ilə qarşılıqlı münasibətlər

Təşviqat fəaliyyəti və elmi mübadilə

Hədiyyələr, qonaqpərvərlik əlamətləri və əlaqədar xərclər

Maraqların toqquşması

Təchizatçıların seçimi və satınalmalar

Rəqabət və vicdanlılıq

Beynəlxalq ticarət fəaliyyəti

Ətraf mühitin mühafizəsi








## Rüşvətxorluğa yol verilməməsi

**Menarini Group-da rüşvətxorluğun hər hansı forması (açıq, şəxsi, aktiv və ya passiv), israfçılıq, fırıldaqçılıq, oğurluq və qanunsuz üstünlüyün verilməsi qəti qadağandır.**

Beləliklə, İştirakçılar işgüzar qərarın qəbul edilməsinə və ya ədalətsiz faydanın əldə edilməsinə (o cümlədən qüvvədə olan müqavilələr və ya yeni biznesin yaradılması üçün) təsir edə biləcək hər hansı qiymətli əşyanın (məsələn, hədiyyələrin, səfərlərlə əlaqəli əsassız imtiyazların, işgüzar razılaşmaların və s.) bilavasitə və ya dolayı yolla təklif olunmasından, vəd olunmasından və ya təqdim olunmasından çəkinməlidirlər.

Davamı növbəti səhifədədir

**Çətin bir vəziyyətlə qarşılaşdıqda özünüzdən soruşun:**

- Qüvvədə olan qanunvericilik və normativ aktlarla buna icazə verilirmi?
- Bu, Kodeksin və şirkətin digər siyasət və prosedurlarının hərfinə və ruhuna uyğundurmu?
- Hərəkətlərim KİV-də açıqlanarsa, özümü rahat hiss edəcəyəmmi?





**Menarini rüşvətxorluğun bütün formalarını qəti şəkildə qadağan edir. Bütün İştirakçılar bu prinsipə əməl etməli və işgüzar qərarın qəbul edilməsinə və ya ədalətsiz işgüzar üstünlüyün əldə edilməsinə uyğunsuz şəkildə təsir göstərə biləcək istənilən vəziyyətləri qəti şəkildə rədd etməlidirlər.**

## Rüşvətxorluğa yol verilməməsi

**Hər hansı bu cür hərəkətlər Menarini şirkətlər qrupu, onun işçiləri və işgüzar tərəfdaşları üçün qəbuledilməz hesab olunur.**

Təsirə məruz qalan şəxslər (Şirkətlə birlikdə) bu Kodeksə, fəaliyyətimizi həyata keçirdiyimiz ölkələrin qanunvericiliyinə və normativ aktlarına uyğun olaraq, o cümlədən rüşvət təklif edən və ya verən üçüncü şəxslə qarşılıqlı əlaqə zamanı məsuliyyət daşıyırlar. Menarini şirkətlər qrupunun yalnız bizim etik standartlarımıza əməl edən şəxslərlə münasibət saxlamasını təmin etmək üçün üçüncü şəxslərin seçimi zamanı ehtiyatlı olmaq və lazımi səyləri göstərmək lazımdır.

Bütün bunlar səhiyyə işçiləri ilə münasibətlərə də şamil edilir. Yadda saxlamaq lazımdır ki, bir çox vəziyyətlərdə onlar rüşvətxorluq və korrupsiya ilə mübarizə haqqında qanunların tətbiqi baxımından vəzifəli şəxslər/dövlət qulluqçuları ola bilərlər *("Səhiyyə işçiləri ilə qarşılıqlı əlaqələr" bölməsinə baxın)*





## Səhiyyə işçiləri ilə qarşılıqlı əlaqələr

**Menarini səhiyyə işçiləri ilə qarşılıqlı fəaliyyətə aid olan bütün mövcud normalara tam əməl edir.**

Səhiyyə işçilərinin tibbi rəyinə təsiri istisna etmək üçün hökumətin, müəssisələrin və digər strukturların (həm dövlət, həm də özəl) əməkdaşları və ya vəzifəli şəxsləri olan səhiyyə işçiləri ilə bütün qarşılıqlı münasibətlər hərtərəfli araşdırılacaqdır *("Rüşvətxorluğa yol verilməməsi" bölməsinə baxın)*.

**Əgər tədqiqatçı, məsləhətçi və ya məruzəçi kimi Sizə tədqiqatların aparılması və ya elmi biliklərin mübadiləsi üçün səhiyyə işçisini cəlb etmək tələb olunursa, bu, müstəsna olaraq qanuni və əsaslandırılmış işgüzar məqsədlərin təmin edilməsi üçün həyata keçiriləcəkdir. Bununla yanaşı, bu cür əməkdaşlığın şərtləri daxili prinsiplərə və qaydalara və qüvvədə olan bütün qanunlara və normativ aktlara uyğun olmalıdır.** Səhiyyə işçiləri ilə qarşılıqlı əlaqələr həm mövcud beynəlxalq qanunvericiliklə və müvafiq sahələrin davranış kodeksləri ilə (xüsusilə də Əczaçılıq məhsullarının istehsalçılarının və assosiasiyaların Beynəlxalq Federasiyasının - IFPMA), həm də regional/yerli normativ aktlarla (məsələn, Avropa Əczaçılıq sənayesi və assosiasiyaları Federasiyası - EFPIA) tənzimlənməlidir.

Bu məqsədlə, Menarini *Etika və Dürüstlülük Siyasətləri* eləcə də Məlumatların mühafizəsinə dair ümumi reqlament modeli və ayrılıqda hər bir şirkət səviyyəsində antiinhisar qanunvericiliyinə əməl olunması üzrə müvafiq proqramlar çərçivəsində səhiyyə sistemi, əczaçılıq bazarı və təşviqat fəaliyyəti ilə qarşılıqlı fəaliyyətə dair konkret daxili qaydaları işləyib hazırlamışdır.

**Səhiyyə işçilərinə həkimlər, stomatologiya, əczaçılıq sahəsinin mütəxəssisləri , tibb bacıları və ya öz fəaliyyəti zamanı dərman vasitələrini təyin edə, əldə edə, tədarük edə, tövsiyə edə və ya yeridə bilən hər hansı şəxslər aiddir.**



## Təşviqat fəaliyyəti və elmi mübadilə

Öz məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə diqqət yetirən Menarini etibarlı bir şirkət kimi imicini təmin etmək və gücləndirmək məqsədilə məlumatlandırma və təşviqat fəaliyyətini vicdanlı və ədalətli şəkildə həyata keçirməyə çalışır.

Təşviqat fəaliyyətinin məqsədi – səhiyyə işçilərinə məhsullarımızın terapevtik dəyəri barədə öz rəylərini formalaşdırmaq, onların effektiv istifadəsini təmin etmək və pasiyentlərə qulluğu yaxşılaşdırmaq imkanı verməkdir. Buraya tibbi tədqiqatların genişləndirilməsi, tibb və praktik idarəetmə sahəsində biliklərin artırılması, məhsul və xidmətlərimizin təşviq olunması və sonradan vacib rəylərin toplanması da daxil ola bilər.

Şirkət və ya onun əməkdaşları tərəfindən fəal şəkildə istifadə olunan və məhsullarımız barədə müəyyən fikirləri və məlumatları ehtiva edən materiallar də daxil olmaqla, reklam materialları və təşviqat fəaliyyəti dünya səviyyəsində ciddi şəkildə tənzimlənir: biz qüvvədə olan bütün beynəlxalq və yerli normalara əməl etməyə borcluyuq.

Hər hansı qeyri-müəyyənliyin qarşısını almaq, yüksək etik, tibbi və elmi standartlara cavab vermək üçün bütün reklam materialları və təşviqat fəaliyyəti son dərəcə dəqiq olmalıdır.




## Hədiyyələr, qonaqpərvərlik əlamətləri və əlaqəli xərclər

Prinsipcə, qüvvədə olan qanunlar, normativ aktlar və ya sahə kodekslərinin müvafiq müddəaları ilə qadağan edilmədikləri halda, işgüzar danışıqlar çərçivəsində ənənəvi hədiyyələrin və ya kiçik bir yemək ismarlanmasının və ya digər maddi nemətlərin təklif edilməsinə icazə verilir.

Bunlar bu cür iltifat əlamətlərinin alan şəxsin rüşvətlə ələ alınması kimi qiymətləndirilməyəcəyi hallarla məhdudlaşa bilər *("Rüşvətxorluğa yol verilməməsi" bölməsinə baxın).* Bundan əlavə, yerli normativ aktlar və qanunlarla icazə verilən işgüzar etika qaydalarına və standartlarına əməl olunmalıdır *("Səhiyyə işçiləri ilə*





## Maraqların toqquşması

Maraqların toqquşması – Sizin şəxsi maraqlarınızın Menarini-nin maraqları ilə toqquşduğu və ya toqquşma, o cümlədən potensial toqquşma təəssüratı yaratdığı vəziyyətdir.

Göstərilən hərəkətlərdən hər hansı birinin icra edilməsi (maraqların real və potensial toqquşması zamanı), onların həyata keçirilməsinə yardım və ya Sizin peşəkar qiymətləndirmənizə xələl gətirə və / və ya şirkətin mənafeyi naminə qərəzsiz qərar qəbul etmə qabiliyyətinizi təhlükə altına ala biləcək hər hansı digər fəaliyyət qəti qadağandır. Bunlar bu Kodeksin prinsip və qaydaları ilə ziddiyyət təşkil edən digər əlaqəli hərəkətlərə də aiddir.

Maraqların toqquşmasına şübhə özlüyündə Menarini-yə olan inamı sarsıda və nüfuzumuza ciddi ziyan vura bilər. Buna görə də, biz hər hansı bu cür vəziyyətin aşkarlanmasına və onun aradan qaldırılması və ya nəticələrinin yüngülləşdirilməsi üçün tədbirlər görməyə çalışırıq.

**A "Maraqların toqquşması"na nümunə: iki şirkətdə işləmək**

**Ssenari**
İnsan resursları (HR) şöbəsi işçinin digər əczaçılıq şirkətində tam iş günü işlədiyi barədə məlumat alır. Bu məsələ ilə bağlı araşdırmaya başlanılır.

**Nəticə**
İnsan resursları şöbəsinin işçi ilə apardığı söhbət əsasında məlum olur ki, işçi Menarini-də işə başlamazdan əvvəl əvvəlki şirkətdən işdən azad olunmayıb. İkili məşğulluq maraqların toqquşması demək olduğundan və hər iki şirkətin məxfiliyi üçün əhəmiyyətli bir riskə gətirib çıxardığından, işçinin Menarini ilə bağlanmış əmək müqaviləsinə dərhal xitam verilir.

**Yekun nəticələr**
Anlamaq lazımdır ki, yanaşı olaraq digər şirkətdə də işləmək qəti şəkildə bəyənilmir, çünki vəzifə öhdəlikləri və Şirkətin işgüzar maraqları ilə açıq-aydın ziddiyyət təşkil edir.

*qarşılıqlı əlaqələr" bölməsinə baxın*).

## Təchizatçıların seçilməsi və satınalmalar

Menarini öz fəaliyyətini həyata keçirərkən məhsulları və xidmətləri onların keyfiyyətini, təhlükəsizliyini, effektivliyini, eləcə də etibarlı təchizatçılar tərəfindən təklif edilən qiymətini nəzərə almaqla əldə edir.

Təchizatçılar bizim vicdanla işləmək, yerli qaydalara və qanunlara əməl etmək səylərimizi bölüşməlidirlər.
Onların seçimi ədalətlilik, şəffaflıq, məhsulların və xidmətlərin əldə edilməsi baxımından qərarlarımıza təsir edə bilən maraqların toqquşmasına (hətta potensial) tamamilə yol verməmək prinsiplərinə əsaslanır.
Bunun nəticəsi olaraq, biz öz təchizatçılarımızla münasibətlərin müntəzəmliyini izləyəcək və yoxlayacağıq *(Menarini-nin üçüncü şəxslər üçün Davranış Kodeksi)*

Biz hər hansı qanunazidd davranışı, məsələn, korrupsiyanı, vicdansız rəqabəti, ətraf mühitin mühafizəsinə dair müddəaların pozulmasını və ya insan hüquqlarını pozan əmək şəraitini qəbul etməyəcəyik.







## Rəqabət və vicdanlılıq

Menarini üçün rəqabət və vicdanlılıq qanuni tələblərdən daha artıqdır: onlar təyin edilmiş korporativ dəyərləri əks etdirirlər. Biz məhsullarımızın güclü tərəflərinə və dəyərinə əsaslanaraq açıq və rəqabətli bazarın yaradılmasına çalışırıq.
Menarini şirkətlər qrupu öz sosial məsuliyyəti çərçivəsində bütün işgüzar münasibətlərdə bərabər dərəcəli rəqabəti və vicdanlılığı təmin edən xüsusi siyasət və proqramları tətbiq etmişdir. 2006-cı ildən etibarən biznesin aparılması zamanı antiinhisar pozuntuların riskinin azaldılmasına yönəldilmiş hərtərəfli təlim, nəzarət sistemi və korporativ siyasətlər tətbiq edilmişdir və onlar daima yenilənir.



## Beynəlxalq ticarət fəaliyyəti

Menarini beynəlxalq ticarətə dair, o cümlədən idxalı və ixracı tənzimləyən və ya ticarət sanksiyaları və embarqolarla əlaqəli olan bütün qanunlara və normativ aktlara əməl etməyi öhdəsinə götürür.
Bütün işçilər Menarini-nin adından həyata keçirilən hər hansı bir fəaliyyətə tətbiq olunan məhdudiyyətlərlə tanış olmalıdırlar. Məhdudiyyətlər və ya qadağalar məhsulların xarakterindən, mənşə və ya təyinat ölkəsindən, maliyyə əməliyyatlarının valyutasından və ya hətta belə bir əməliyyatın bir hissəsinin müəyyənləşdirilməsindən asılı ola bilər.



## Ətraf mühitin mühafizəsi

Menarini ətraf mühitin mühafizəsinin vacibliyini dərk edir və bu səbəbdən də, öz fəaliyyətini planlaşdırarkən iqtisadi təşəbbüslərlə ətraf mühitin mühafizəsinə dair müasir ehtiyaclar arasında adekvat tarazlığı axtarıb tapmağa çalışır. Biz ətraf mühitə təsiri minimuma endirmək üçün biznesimizi davamlı şəkildə həyata keçiririk.

Bu, bizim bütün dünyada olan fəaliyyət obyektlərimizdə tətbiq edilə bilən bütün beynəlxalq və yerli qanunlara və normalara əməl olunmasına zəmanət verən, eləcə də təsirin azaldılması üzrə səylərimizin maksimum dərəcədə effektivliyini təmin edən ekoloji standartlar tətbiq etmək öhdəliyimizdə öz əksini tapmışdır.





**Fəsil 2 - Real nümunələr** ✓

**Təchizatçının tədbirinə dəvəti qəbul edə bilərəmmi?**
Qüvvədə olan yerli qanunlar və sahə kodeksləri ilə qadağan olunmadığı halda, səbəbi məqbul olduqda və tədbir mütəmadi keçirilmədiyi təqdirdə bu cür dəvəti qəbul etmək qadağan edilmir. Dəvəti qəbul etməzdən əvvəl rəhbərinizlə məsləhətləşməlisiniz, çünki bu, gələcəkdə qərar qəbulu zamanı obyektivliyinizə təsir edə bilər.

**Maraqların toqquşmasına gətirib çıxara bilən qərar verməliyəmsə, nə etməliyəm?**
Vəziyyəti dərhal rəhbərinizlə müzakirə edin. Adətən, potensial münaqişəni açıqlamaq və sənədləşdirmək kifayətdir. Münasib bir həll tapmaq üçün siz məsələni Komplayens şöbəsi və ya Hüquqi şöbə ilə müzakirə edə bilərsiniz.

**Bir tibbi nümayəndə olaraq, yerli səhiyyə işçilərinə içərisində məhsullarımızın təqdimatlarının olduğu planşetlər hədiyyə etmək istəyirəm. Bu mümkündür?**
Xeyr. Yalnız tibbi təcrübəyə aidiyyəti olan və yerli qanunlarla və Şirkətin siyasətləri ilə icazə verilən tədris materiallarına və nominal dəyərli əşyalara icazə verilir. Bütün hədiyyələr Şirkətin müvafiq şöbələri tərəfindən əvvəlcədən razılaşdırılmalıdır.
Təqdim olunmasına icazə verilən hədiyyələr baxımından hər hansı şübhələriniz olduqda, aydınlaşdırmaq və ya məsləhət almaq üçün Komplayens şöbəsinə müraciət edin.



# 03

# İŞÇİLƏRİMİZİN MÜHAFİZƏSİ




İnsan resursları

Qısnama və ayrı-seçkiliyin mütləq şəkildə qəbul edilməməsi

Ədalətli rəftar

Sağlamlıq və təhlükəsizlik

İnsan haqları

İşçilərin məxfilik hüququ

İnklüzivlik mədəniyyəti

Sosial şəbəkələrdə ünsiyyət zamanı məsuliyyət






## İnsan resursları

İnsan resursları Şirkətimizin inkişafı üçün ən vacib elementdir. İnsan resursları idarə edilməsi insanlara hörmət və onların özünəməxsus olduqlarının qəbul edilməsinə əsaslanır.
Onların yüksək peşəkarlığı və Menarini-yə sadiqliyi Şirkətin məqsədlərinə nail olmaqda həlledici amillərdir.
Bu səbəbdən də, biz şəxsiyyətin hüquqlarına, xüsusilə də işçilərimizin fiziki və etik toxunulmazlığına dair qüvvədə olan qanunvericiliyə uyğun olaraq, biliklərin və qazanılmış bacarıqların genişləndirilməsinə yönəlmiş peşəkar böyümə və inkişafı təşviq edirik. Kodeksdə qeyd edilmiş dəyərlərə sadiqlik işçilərimizin mükafatlandırılması, həvəsləndirilməsi və karyera yüksəlişi üçün fundamental əhəmiyyət kəsb edir.
Menarini standart qabaqcıl təcrübədən istifadə edərək, vakant mövqelər üçün müraciət edən bütün namizədlərə ədalətlə və hörmətlə yanaşır; istənilən növ tövsiyələrə və himayədarlıqlara icazə verilmir.



## Qısnama və ayrı-seçkiliyin mütləq şəkildə qəbul edilməməsi

Ayrı-seçkilik və qısnamalar baxımından biz bütün işçilərimizin bizim mövqeyimizə – bu cür halların mütləq şəkildə qəbul edilməməsinə sadiq qalmalarını tələb edirik. Menarini ayrı-seçkiliyin olmadığı iş məkanı yaratmağa çalışır. Biz irq, dərinin rəngi, cins, din, milliyyət, seksual tərcihlər, yaş, əlillik, hamiləlik, ailə vəziyyəti, veteran statusu və ya qanunvericilikdə nəzərdə tutulmuş hər hansı digər aspekt kimi şəxsi xüsusiyyətlərə əsaslanan hər hansı yanlış fikirləri qəbul etməyəcəyik. Bütün bunlar təqib, hədə-qorxu və məcburetməyə də aiddir.

İşçilərin idarə edilməsi, o cümlədən işə qəbulu, qiymətləndirilməsi, başqa işə keçirilməsi, karyera yüksəlişi, təzminat verilməsi və ya işdən azad edilməsi hər hansı ayrı-seçkilik olmadan həyata keçirilməlidir.

İşçilər və müdirlər onların şəxsi xüsusiyyətlərə və ya meyllərinə görə deyil, bacarıqlarına, qabiliyyətlərinə və iş nəticələrinə görə qiymətləndiriləcəklərini gözləməlidirlər.



**Menarini ayrı-seçkiliyin olmadığı iş məkanı yaratmağa çalışır. Biz irq, dərinin rəngi, cins, din, milliyyət, seksual tərcihlər, yaş, əlillik, hamiləlik, ailə vəziyyəti, veteran statusu və ya qanunvericilikdə nəzərdə tutulmuş hər hansı digər aspekt kimi şəxsi xüsusiyyətlərə əsaslanan hər hansı yanlış fikirləri qəbul etməyəcəyik. Bütün bunlar təqib, hədə-qorxu və məcburetməyə də aiddir.**





## Ədalətli rəftar

Menarini bütün işçilərə qarşı ədalətli və bərabərhüquqlu münasibəti təmin edir, əlverişli iş mühitinin yaradılmasını təşviq edir və bütün əmək qanunlarına və normalarına əməl edir. Biz qeyri-sivil və qeyri-insani hərəkətlərin, o cümlədən cinsi qısnama və cinsi zorakılığın, cismani cəzaların, fiziki və ya psixoloji məcburiyyətin, şifahi təhqirlərin olmadığı iş məkanını təmin etmək üçün əlimizdən gələni edirik.

## Sağlamlıq və təhlükəsizlik

Menarini, bütün işçilərinin, ofislərimizə giriş hüququ olanların və şirkətin fəaliyyətində iştirak edənlərin sağlamlığının və təhlükəsizliyinin qorunmasının vacibliyini dərk edir.

Biz bütün dünyada olan iş yerlərimizdə sağlamlığın və təhlükəsizliyin mühafizəsi üzrə vahid standartları tətbiq etməyi, əmək şəraitini yaxşılaşdırmağı, qüvvədə olan, o cümlədən işgüzar səfərlər və görüşlər baxımından bütün qanunlara və normativ aktlara əməl olunmasını təmin etməyi öhdəmizə götürürük. Məqsədimiz – işçilərimizin, üçüncü şəxslərin və ictimaiyyətin iştirakı ilə baş verən arzuolunmaz bədbəxt hadisələri azaltmaq və ya onların qarşısını almaqdır. Beləliklə, biz konkret məlumatlar və hədəf təlim proqramları vasitəsilə işçilərimiz arasında bədbəxt hadisələrin qarşısının alınması və risklər barədə məlumatlılıq mədəniyyətini fəal şəkildə təşviq edirik.

Hər bir kəs, o cümlədən bütün bədbəxt hadisələr və/və ya "potensial təhlükəli vəziyyətlər" barədə vaxtında məlumatlandırma vasitəsilə təhlükəsiz əmək şəraitinin qorunub saxlanmasına görə cavabdehdir.





## İnsan haqları

Menarini hər hansı sui-istifadədə iştirakdan çəkinərək Birləşmiş Millətlər Təşkilatının Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin prinsiplərinə əməl etməyi və onlara hörmətlə yanaşmağı öhdəsinə götürür.
Biz qüvvədə olan bütün qanunlara uyğun olaraq işçilərimizin ləyaqətini, azadlığını, sağlamlığını və bərabərliyini qorumağa çalışır, eləcə də ayrı-seçkiliyin istənilən formalarını, uşaq əməyindən və ya məcburi əməkdən istifadəni qadağan edirik.
Biz öz işgüzar tərəfdaşlarımızdan insan haqlarına və işçilərin hüquqlarına eyni dərəcədə əməl etmələrini tələb edirik.





## İşçilərin məxfilik hüququ

Menarini bütün şəxslərin, o cümlədən işçilərinin, əməkdaşlarının və tərəfdaşlarının fərdi məlumatlarının mühafizəsinə ciddi yanaşır. Bu məlumatlar məxfiliyə ciddi riayət edilməklə, məlumatların mühafizəsinə dair qüvvədə olan normalara, habelə Menarini Şirkətlər Qrupunun Məlumatların mühafizəsinə dair ümumi Reqlamentinə uyğun olaraq işlənilir. İnformasiya məlumatların minimallaşdırılması prinsiplərinə uyğun olaraq və yalnız əmək münasibətlərinin idarə olunması ilə əlaqəli məqsədlər üçün toplanır. Bu işlə yalnız səlahiyyətli işçilər ciddi xidməti zərurətlə əlaqədar olaraq məşğul olurlar. Məlumatlar toplandıqları məqsədlərə nail olmaq üçün zəruri olduqları müddət ərzində etibarlı şəkildə saxlanılır, bundan sonra lazımi qaydada silinirlər. İşçilərimiz, əməkdaşlarımız və tərəfdaşlarımız məxfilik haqqında qanunvericilikdə nəzərdə tutulmuş hüquqlardan istifadə etmək və/və ya şəxsi məlumatların düzgün istifadə edilməməsi barədə məlumat vermək üçün istənilən vaxt əlaqə saxlaya bilərlər.



## İnklüzivlik mədəniyyəti

Müxtəliflik – hər bir işçinin özünəməxsusluğuna və dəyərli töhfələrinə hörmət edən bir mədəniyyət qurmaq istəyimizin ən vacib dəyəridir.
Bizim iş mühitimizdə istənilən müxtəliflik – milliyyət, mədəniyyət, etnik mənsubiyyət, din və ya peşə təcrübəsi əlavə üstünlük kimi nəzərdən keçirilir. Biz bu cür müxtəlifliklər nəzərə almağa və uğurumuz üçün onların vacibliyini qəbul etməyə çalışırıq.

## Sosial şəbəkələrdə ünsiyyət zamanı məsuliyyət

Şirkətin imicini və nüfuzunu qorumaq üçün işçilərin  həm peşəkar səviyyədə, həm də özəl olaraq sosial şəbəkələrdən düzgün istifadə etmələri tələb olunur. Həqiqətən də, hər hansı onlayn məzmunun yerləşdirilməsi və ya ona şərh yazılması Menarini-nin nüfuzuna təsir göstərə bilər.
Şirkətimizin məhsulları baxımından, yalnız səlahiyyətli işçilər Menarini-nin adından sosial şəbəkələrdə ünsiyyət qurmaq hüququna malikdirlər.








Fəsil 3 - Real nümunələr

**Mən işlədiyim şöbədə açıq vakansiyanın olduğu barədə öyrəndim. Qardaşımın Menarini-də işləməkdə maraqlı olduğunu bilirəm. Mən onu öz rəhbərimə və ya İnsan resursları şöbəsinə tövsiyə edə bilərəmmi?**
Menarini mövcud işçilərlə əlaqələrindən asılı olmayaraq ixtisaslı namizədlərin tövsiyə olunmalarını təşviq edir. Buna baxmayaraq, Şirkət hər hansı bir tövsiyə və ya himayədarlıq əsasında kadrları işə götürmür.

**Məndə belə bir qeyri-rəsmi məlumat var ki, təchizatçılarımızdan biri uşaq əməyindən istifadə üzrə ittihamla istintaq altındadır. Mən bu şayiəyə laqeyd yanaşmalıyammı?**
Xeyr. Menarini insan hüquqlarını müdafiə edir və mövcud qanunvericiliyə və ümumi qəbul edilmiş əmək standartlarına uyğun olmayan davranışlara imkan vermir. Siz dərhal rəhbərinizlə danışaraq bu məlumatı
onun diqqətinə çatdırmalısınız. Menarini məsələni araşdıracaq və lazım gələrsə, müvafiq addımlar atacaqdır.

**Həmkarım mənə öz sosial şəbəkə hesabım vasitəsilə Şirkətimizin məhsulu barədə paylaşım etməyi təklif etdi. Buna icazə verilirmi?**
Bu vəziyyət olduqca ehtiyatlı olmağı tələb edir. Hər zaman



# 04

# PASİYENTLƏRİMİZƏ FOKUSLANMA







## Tədqiqat və layihələrdə vicdanlılıq

Biz tədqiqat və layihələrimizdə elmi mükəmməlliyə nail olmağa çalışırıq, bu da bizə pasiyentlərimizin terapevtik ehtiyaclarına uyğun olan innovativ və keyfiyyətli məhsullar təqdim etməyə imkan verir.

Biz bu fəaliyyəti vicdanla, etik aspektlərə xələl gətirmədən, bütün preklinik və klinik tədqiqatların yüksək tibbi və elmi standartlara, qüvvədə olan bütün qanunlara, normativ aktlara və qabaqcıl təcrübənin rəhbər prinsiplərinə uyğun olaraq aparıldığına zəmanət verərək həyata keçiririk.

**Tədqiqat və layihələrdə vicdanlılıq**

**Məlumatların açıqlanması**

**Məhsullarımızın keyfiyyəti**

**Pasiyentin təhlükəsizliyi**

**Təhlükəsizliyin monitorinqi və hesabatlar**

**Məlumatların məxfiliyi**



## Məlumatların açıqlanması

İcazə verildiyi hallarda, biz klinik tədqiqatların məlumatlarını pasiyentlərlə, tibbi/tədqiqat cəmiyyətləri ilə və kütləvi informasiya vasitələri ilə paylaşmağa çalışırıq.
Biz bunu pasiyentlərin məxfiliyini qorumaqla, eləcə də qüvvədə olan normalara uyğun olaraq həyata keçiririk.



## Məhsulların keyfiyyəti

Biz öz məhsullarımızı ən yüksək keyfiyyət standartlarına, bütün qanunvericilik və normativ tələblərə, eləcə də beynəlxalq səviyyədə qəbul edilmiş qabaqcıl təcrübəyə uyğun olaraq işləyib hazırlayır, istehsal edir və onlara nəzarəti həyata keçiririk.
Bu məqsədlə biz Menarini-nin ən yüksək peşəkar bacarıqlara malik olan işçiləri tərəfindən dəstəklənən və Şirkət tərəfindən daim təbliğ olunan unikal keyfiyyətə nəzarət sistemini tətbiq etmişik.
Belə bir keyfiyyət sistemi müvafiq səhiyyə orqanı tərəfindən mütəmadi olaraq yoxlanılır və sertifikatlaşdırılır.





## Pasiyentin təhlükəsizliyi

Fəaliyyətimiz pasiyentlərə fokuslanma əsasında qurulmuşdur. Biz dərmanların satışını pasiyentlərin fiziki tamlığını və sağlamlığını qorumaq və yaxşılaşdırmaq məqsədilə həyata keçiririk.
Şirkətin pasiyentlər qarşısında etik öhdəliklərini ən yaxşı şəkildə həyata keçirmək və onlara riayət etmək məqsədilə, biz onlar üçün optimal elmi, terapevtik, tibbi və diaqnostik həllər hazırlamaqdan ötrü maksimum dərəcədə səy göstəririk. Bu, həmçinin pasiyentlərin təhlükəsizliyinə zəmanət vermək üçün məhsullarımız baxımından ən ciddi normalara əməl olunması və hətta onların üstələnməsi üzrə işi də nəzərdə tutur.
Məntiqə uyğun olaraq, biz məhsullarımızı və ticarət markalarımızı saxtalaşdırılmalardan, oğurluqlardan və hər hansı qanunsuz istifadədən qorumağa çalışırıq.

**Bizim fəaliyyətimiz və qərarlarımız pasiyentlərə fokuslanmaya əsaslanır. Biz dərmanların işlənib hazırlanmasını və satışını pasiyentlərin fiziki tamlığını və sağlamlığını qorumaq və yaxşılaşdırmaq məqsədilə həyata keçiririk. Pasiyentlərin təhlükəsizliyi heç zaman təhlükə altına qoyulmamalıdır.**

## Təhlükəsizliyin monitorinqi və hesabatlar

Menarini həm satdığı məhsulların, həm də klinik tədqiqatlarda istifadə olunan preparatların təhlükəsizliyi ilə bağlı bütün məlumatları izləyir, qiymətləndirir və idarə edir.
Buna görə də, işçilər Menarini Group Şirkəti tərəfindən satılan dərmanın və ya məhsulun qəbulundan sonra yarana biləcək əlavə təsirlər və ya problemlər barədə dərhal məlumat verməlidirlər.
Əlavə təsirlərə istənilən əlverişsiz və gözlənilməz nəticələr, məsələn, laborator göstəricilərin normadan kənarlaşması, hətta preparatın özü ilə birbaşa əlaqəli olmasa da, dərman vasitəsinin qəbulu ilə müvəqqəti əlaqəli olan simptom və ya xəstəlik aiddir.
Menarini Group-a daxil olan hər bir Şirkətin saytında ətraflı təsvir edilmiş prosedura uyğun olaraq əlavə təsirlər barədə məlumat vermək olar.

## Məlumatların məxfiliyi

Dünyanın hər yerində Menarini Group tərəfindən maliyyələşdirilən klinik tədqiqatlarda iştirak edən şəxslər də daxil olmaqla, bütün pasiyentlərin məxfilik hüquqları, əsas azadlıqları və ləyaqəti bizim üçün böyük əhəmiyyət kəsb edir.

Menarini, pasiyentlərinin bütün məlumatlarının təhlükəsizliyini təmin etməyi və məlumat itkisinin, bu cür məlumatlara icazəsiz və ya qanunsuz girişin və ya istifadənin qarşısını almaq üçün qüvvədə olan bütün qanunlarda nəzərdə tutulmuş təhlükəsizlik tədbirlərinə riayət etməyi öhdəsinə götürür. Bundan əlavə, Şirkət bütün fərdi məlumatların qorunmasına yönəlmiş bir çox texnoloji həllərdən və təhlükəsizlik prosedurlarından istifadə edir. Bu cür məlumatlar, məlumatların qorunması üzrə ən sərt standartlara və əlavə edilən məlumat bildirişlərinin müddəalarına tam uyğun olaraq toplanır, işlənir və silinir.

Pasiyentlər Məxfiliyə dair qanunlarla təqdim edilən hüquqlardan yararlanmaq və/və ya onların fərdi məlumatlarından düzgün istifadə edilməməsi barədə məlumat vermək üçün Məlumatların mühafizəsi üzrə səlahiyyətli mütəxəssisə istənilən vaxt müraciət edə bilərlər.







Fəsil 4 - Real nümunələr

**Mən istehsal xəttində işləyirəm. Konveyerdən çıxan bəzi hazır məhsulların Menarini-nin keyfiyyət standartlarına cavab vermədiyini görsəm, nə etməliyəm?**
Menarini yüksək keyfiyyətli məhsullar istehsal edir. Standartlarımıza uyğun olmayan məhsullar aşkar etsəniz, müvafiq sənədlərdə müəyyən edilmiş prosedurlara əməl edin və lazım gələrsə, rəhbərinizə və Keyfiyyətə nəzarət şöbəsinin mütəxəssislərinə bu barədə məlumat verin.

**Şam yeməyi qonaqlığında Menarini-dən olan həmkarım dostunun Menarini məhsulundan istifadə etdiyini və başının ağrıdığını öyrənir. Bu barədə məlumat verməliyəmmi?**
Bəli. Bu cür məlumatların necə toplanmasından asılı olmayaraq, Menarini məhsulunun potensial əlavə təsirinin ağırlıq dərəcəsi barədə 24 saat ərzində məlumat verilməlidir.

**Mən müəyyən layihələr çərçivəsində bir qrup pasiyentlə işləyirəm və bəzən onların şəxsi məlumatları mənə təqdim olunur. Mən nə etməliyəm?**
Sizin vəzifəniz konkret layihə ilə bağlı fərdi məlumatların düzgün şəkildə mühafizəsini təmin etməkdən ibarətdir.



# 05

# MƏLUMATLARIN İDARƏ EDİLMƏSİNDƏ

# VƏ AKTİVLƏRİN MÜHAFİZƏSİNDƏ VİCDANLILIQ




Mühasibatlıq kitabları, qeydlər və maliyyə hesabatları

Əqli mülkiyyət

Məxfi məlumatlar

Korporativ aktivlərin mühafizəsi






## Mühasibat kitabları, qeydlər və maliyyə hesabatları

Hesablarımızın, maliyyə sənədlərimizin, hesabatlarımızın, qanunla tələb olunan və səhmdarlara və ya ictimaiyyətə ünvanlanan digər məlumatların doğruluğu, dürüstlüyü və şəffaflığı Menarini Şirkətlər Qrupu üçün fundamental dəyərə malikdir.

İqtisadi və ya maliyyə baxımından əhəmiyyətli olan bütün əməliyyatlar lazımi qaydada qeydiyyata alınmalıdır. Hər bir qeyd sözügedən əməliyyatı təsdiqləyən və bu cür hərəkətlərə kimin icazə verdiyini, kimin həyata keçirdiyini, kimin qeyd etdiyini və kimin yoxladığını müəyyənləşdirən müvafiq sənədlərlə müşayiət olunmalıdır. Bundan əlavə, iş qeydləri mühasibat və maliyyə məlumatlarını, iş vaxtının uçotu və əmək haqqının hesablanması barədə məlumatları, xərclər barədə hesabatları, müştərilər və təchizatçılar barədə məlumatları, hesab-fakturaları, istehsal qeydlərini və Şirkət haqqında digər vacib məlumatları ehtiva etməlidir.



## Əqli mülkiyyət

Menarini-də biz qabaqcıl məhsulların tədqiqi və işlənib hazırlanması vasitəsilə əczaçılıq və diaqnostika sektorlarında innovasiyaları təbliğ edirik və əqli mülkiyyətin ciddi mühafizəsi bu məqsədə çatmaq üçün əsas amildir. Əqli mülkiyyət Şirkət üçün rəqabət üstünlüyünü təmin edir.

Davamı növbəti səhifədədir



## Əqli mülkiyyət

Bu, istənilən patentlərə, əmtəə nişanlarına, müəllif hüquqlarına, ticarət sirlərinə (məsələn, elmi, texniki və kommersiya nou-hauları), eləcə də məhsulların bazara buraxılması da daxil olmaqla, biznes strategiyalarına aiddir. Biz əqli mülkiyyətimizi itirilmədən, oğurlanmadan və digər qanunsuz istifadədən sığortalayır və üçüncü şəxslərin əqli mülkiyyətinə hörmətlə yanaşırıq.



## Məxfi məlumatlar

Fəaliyyətimiz zamanı biz Şirkətlərimiz, işgüzar tərəfdaşlarımız və ya hər hansı digər üçüncü tərəflər haqqında məxfi məlumatları toplaya və ya öyrənə bilərik.
Şirkətlərin maraqlarını qorumaq üçün biz bu məlumatları qanuni işgüzar zərurət və ya məxfiliyin qorunması barədə ilkin saziş olmadan Menarini daxilində və ya ondan kənarda olan şəxslərə ötürmürük.



## Korporativ aktivlərin mühafizəsi

Menarini Şirkətlər Qrupu hər birimizin Şirkətin aktivlərini mühafizə edəcəyini və onların səmərəli istifadəsini təmin edəcəyini gözləyir. Aktivlərə həm maddi obyektlər, həm də fəaliyyətimizlə əlaqəli məlumatlar, məsələn, əqli mülkiyyət, iş sənədləri və elektron məlumatlar daxildir.
Bütün bunlar qanuni işgüzar məqsədlər üçün, eləcə də maraqların hər hansı toqquşmasının qarşısını almaq üçün istifadə edilməlidir. Oğurluq, səhlənkarlıq və israfçılıq işimizin səmərəliliyinə birbaşa təsir edir və üçüncü tərəflərin bizə göstərdiyi etimadı potensial olaraq pozur.



### Fəsil 5 - Real nümunələr



**Mənim birbaşa rəhbərim müəyyən müştəridən gözlədiyi, lakin hələ təsdiqlənməmiş sifarişi qeydiyyata almağımı xahiş edib. Bu normaldır?**
Xeyr. Qeydlərin və hesabların saxtalaşdırılması və ya təhrif edilməsi fırıldaqçılıqdır. Bundan əlavə, intizam tədbirləri ilə yanaşı, bu həm siz, həm də Menarini üçün mülki və cinayət sanksiyalarına səbəb ola bilər. Heç zaman Menarini sənədlərinə yanlış və ya yanıldıcı qeydlər etməyin.

**Mən Menarini üçün bir seminar təşkil edirəm və elmi jurnaldan bütün iştirakçılara paylamaq üçün bir məqaləni köçürmək istəyirəm. Bunu edə bilərəmmi?**
Qüvvədə olan qanun və qaydalara riayət etmək üçün Siz üçüncü şəxslərin müəllif hüquqlarını nəzərə almalısınız. Müəllif hüquqları baxımından hər hansı şübhələriniz vardırsa, aydınlaşdırmaq üçün rəhbərinizə və/və ya Hüquq departamentinə müraciət edin.

**Menarini-də işləyən həmkarımla birlikdə səyahət edirəm və biz davam edən klinik tədqiqatın məxfi nəticələrini müzakirə edirik. Bu normaldır?**
Siz məxfi məlumatların ictimai yerlərdə, sosial şəbəkələrdə və təsdiq edilməmiş rabitə kanalları vasitəsilə istifadəsi zamanı olduqca ehtiyatlı olmalısınız.



# 06

# İCTİMAİYYƏT VƏ CƏMİYYƏT QARŞISINDA MƏSULİYYƏT

Siyasi ödəmələr

Xeyriyyə ianələri və sosial layihələr

Hakimiyyət orqanları və idarələri ilə əməkdaşlıq





## Siyasi ödəmələr

Menarini siyasi partiyaların, siyasi və həmkarlar ittifaqı hərəkatlarının, siyasi komitə və təşkilatların, eləcə də onların nümayəndələrinin və namizədlərinin birbaşa və ya dolayı yolla maliyyələşdirilməsindən ciddi şəkildə imtina edir. Şirkət həmçinin assosiasiyaları maliyyələşdirmir və məqsədi siyasi təbliğat olan tədbirlərə və konfranslara sponsorluq etmir.




## Xeyriyyə ianələri və sosial layihələr

Menarini zəmanət verir ki, xeyriyyə təşkilatlarına, icmalara və ya sosial məsuliyyət layihələrinə hər hansı ödəmə və ya ianələr qüvvədə olan bütün beynəlxalq və yerli qanun və qaydalara uyğun olaraq həyata keçirilir. Xeyriyyə ianələri və sosial layihələr tamamilə şəffaf olmalıdır. Bu tədbirlər heç bir halda hər hansı növ korrupsiya məqsədləri üçün istifadə edilməməlidir. İanələr və sosial layihələr, faydalanan şəxslərlə əlaqəsi olan istər fiziki, istərsə də hüquqi şəxslərdən birbaşa və ya dolayı yolla qanunsuz faydaların əldə edilməsinə yönəldilməməlidir.



Bütün səlahiyyətli orqan və idarələrlə münasibətlərimizdə maksimum dərəcədə dürüstlük və düzgünlüklə hərəkət etməyə çalışırıq.



## Hakimiyyət orqanları və idarələrlə əməkdaşlıq

Menarini bütün səlahiyyətli orqan və idarələrlə münasibətlərində maksimum dərəcədə dürüstlük və düzgünlüklə hərəkət etməyə çalışır.
Biz hər zaman məlumatların əldə edilməsi üçün qanuni sorğular və yerində araşdırmalarla bağlı tam şəkildə yardım etməyə hazırıq. Mövcud qanunvericiliyə uyğun olaraq aparılan araşdırmalara və ya məlumat sorğularına müdaxilə etməyi hədəfləyən hər hansı bir davranış qəti qadağandır.



Fəsil 6 - Real nümunələr ✓

**Distribütorumuz deyir ki, müəyyən xeyriyyə ianəsi edəcəyimiz təqdirdə dövlət qurumu ilə yeni bir müqavilənin bağlanmasını təmin edə bilər. Mən eşitmişəm ki, bu xeyriyyə təşkilatının İdarə heyətinin üzvü bu müqaviləyə görə cavabdeh olan dövlət müəssisəsində işləyir. Mən nə etməliyəm?**
Heç bir ianə etməyin və bu məsələ barədə rəhbərinizə məlumat verin. Distribütor rüşvəti xeyriyyə ianəsi adı altında gizlətməyə çalışır və hətta çox güman ki, həmin ianənin bir hissəsini müqavilənin bağlanmasına görə cavabdeh olan məmurlara rüşvət vermək üçün istifadə etməyi təklif edir.

**Hakimiyyət orqanları məlumatların əldə edilməsi üçün Şirkətə rəsmi sorğu göndəriblər. Mən Şirkətin sənədlərini və ya məlumatlarını təqdim etməliyəmmi?**
Bəli. Menarini-nin müvafiq bölmələri hakimiyyət orqanları ilə tam şəkildə əməkdaşlıq edir və qanuni sorğular üzrə müvafiq məlumatları təqdim edirlər. Sorğuları dərhal müvafiq bölmələrə (məsələn, Korporativ anti-inhisar qanunvericiliyinə və Məxfiliyə əməl olunması şöbəsinə, Daxili audit və Komplayens şöbəsinə, İnsan resursları şöbəsinə) yönləndirin.



# 07

# DAVRANIŞ KODEKSİNİN POZULMASI BARƏDƏ MƏLUMAT VERİLMƏSİ (KORPORATİV MƏLUMATLANDIRMA SİYASƏTİ)




Məlumatlandırma

İntizam cərimələri

İntiqamdan qoruma






## Məlumatlandırma

**Lazım gələrsə, İştirakçılar qanunların, normaların, bu Kodeksin prinsiplərinin, eləcə də Menarini-nin siyasət və prosedurlarının pozulması, hətta potensial pozulması barədə məlumat verməlidirlər.**

**Menarini-nin öhdəliklərinə təsir edə biləcək yuxarıda sadalanan problemlərdən hər hansı biri barədə məlumat almış işçilər bu barədə aşağıdakı şəxslərə dərhal məlumat verməlidirlər:**

**- birbaşa rəhbərinə,**

**- İnsan resursları şöbəsinə,**

**- və/və ya Komplayens şöbəsinə.**

**Bəyanatlar təqib qorxusu olmadan, məxfi və anonim şəkildə edilə bilər.**

Davamı növbəti səhifədədir →





**Pozuntular barədə effektiv şəkildə məlumat vermək üçün xüsusi məlumatlandırma kanalları yaradılmışdır. Bəyanatlar təqib qorxusu olmadan, anonim şəkildə edilə bilər. Barəsində məlumat verilmiş bütün problemlər məxfi şəkildə nəzərdən**



## Məlumatlandırma

Pozuntular barədə effektiv şəkildə məlumat vermək üçün xüsusi məlumatlandırma kanalları yaradılmışdır:

Veb-sayt
Mərkəzi Komplayens şöbəsinin elektron poçt ünvanı: globalcompliance@menarini.com

Barəsində məlumat verilən bütün məsələlər ədalətli şəkildə, lazımi qaydada nəzərdən keçiriləcək və ciddi məxfilik şəraitində araşdırılacaqdır. Lazım gələrsə, siyasətlərdəki potensial boşluqları aradan qaldırmaq və gələcəkdə pozuntuların qarşısını almaq üçün intizam və düzəldici tədbirlər görüləcəkdir. Bu Kodeksin bəzi pozuntuları zamanı Şirkət  əlavə araşdırma və ya məhkəmə təqibi üçün işin müvafiq dövlət qurumlarına və ya tənzimləyici orqanlara verilməsini tələb edə bilər.
Menarini-nin bir hissəsi olaraq, biz keyfiyyətli məhsulların etik məsuliyyətli və etibarlı tədarükçüsü kimi Şirkətin nüfuzunu qorumaq üçün öz qarşımızda, həmkarlarımız və Şirkət qarşısında məsuliyyət daşıyırıq.





07 - DAVRANIŞ KODEKSİNİN POZULMASI BARƏDƏ MƏLUMAT VERİLMƏSİ
(KORPORATİV MƏLUMATLANDIRMA SİYASƏTİ)
DAVRANIŞ KODEKSİ

## İntizam cərimələri

Menarini hər bir direktorun, işçinin və işgüzar tərəfdaşın müvafiq etik davranış nümayiş etdirməsini gözləyir, bu səbəbdən də, bütün İştirakçılar bu kodeksə əməl etməlidirlər.
Qüvvədə olan qanunvericiliyin və ya bu Kodeksin istənilən pozuntusu müvafiq intizam tədbirlərinə səbəb olacaqdır.
Pozuntunun ciddiliyindən və ya tezliyindən asılı olaraq, şifahi və ya yazılı töhmət, vəzifədən kənarlaşdırılma, intizam sınaq müddəti, pul cəriməsi və/və ya Menarini ilə əmək münasibətlərinə xitam verilməsi tətbiq oluna bilər. Bundan əlavə, bu Kodeksə, Menarini-nin siyasət və prosedurlarına əməl edilməməsi işçinin xidməti irəliləyişi və mükafatlandırılması, o cümlədən həvəsləndirilməsi və ya işinin nəticələrinə görə mükafatlandırılması zamanı nəzərə alına bilər.
Üçüncü şəxslərə gəldikdə, pozuntunun ciddiliyindən asılı olaraq və xüsusi müddəalara uyğun olaraq müqavilədə nəzərdə tutulmuş xüsusi sanksiyalar tətbiq oluna bilər.





## İntiqamdan qoruma

Menarini-də qanunun, Kodeksin və hər hansı digər siyasətin və ya prosedurun pozulmasına dair doğru məlumat verən hər hansı bir şəxsə qarşı heç bir mənfi tədbir görülməməlidir. Hər hansı bir pozuntu barədə məlumat verən şəxslərə qarşı cavab tədbirləri yolverilməzdir. Mənfi hərəkətlər tətbiq edən və ya buna cəhd edən hər bir kəs cəzalandırılacaqdır.
Təqib qurbanları bu barədə birbaşa rəhbərlərinə, İnsan resursları şöbəsinə və ya globalcompliance@menarini.com elektron poçt ünvanına yazaraq Komplayens şöbəsinə dərhal məlumat verməlidirlər.
Nəzərə alın ki, Menarini bilərəkdən yanlış məlumat vermiş şəxslərə qarşı cəza tədbirləri görməklə yanaşı, məsələyə haqsız olaraq cəlb olunmuş şəxsləri də eyni dərəcədə müdafiə edəcəkdir.



# 08

# ƏLAQƏ MƏLUMATLARI





## Əlaqə məlumatları

**Pozuntular barədə effektiv şəkildə məlumat vermək üçün xüsusi məlumatlandırma kanalları yaradılmışdır:**

- *Veb-sayt*
- **Mərkəzi elektron poçt ünvanı: globalcompliance@menarini.com**

**Hər hansı bir sualınız varsa və ya Kodeks ilə bağlı aydınlaşdırmaya ehtiyacınız varsa, aşağıdakı şəxslərə müraciət edin:**

- **Birbaşa rəhbərinizə**
- **İnsan resursları şöbəsinə**
- **Komplayens şöbəsinə**

Ethical vision,
Integrity in action

MENARINI
group